# ROALD DAAL

# *Sehrli barmaq*



Tərcüməçi:
Ofeliya Rəhimqızı

qanun nəşriyyatı

# ROALD DAHL

# *Magic finger*

Qreq ailəsi üçün ov, sadəcə, əyləncədir. Onların qonşuluğunda yaşayan səkkizyaşlı bir qız isə ova nifrət edir. Qız Qreqləri bu işdən çəkindirməyə çalışır, amma onlar ona yalnız istehza ilə gülürlər. Bir gün Qreqlər o qədər hədlərini aşırlar ki, qız artıq onların qəddarlığına dözə bilmir və barmağını onlara tuşlayır. Qız həddindən artıq əsəbiləşəndə, elə bil içindən elektrik cərəyanı keçir və sağ əlinin şəhadət barmağı dəhşətli dərəcədə hərəkət etməyə başlayır... Bu dəfə isə Sehrli barmaq Qreqləri ördəyə çevirir!

*Bu kitab Ofeliya və Lüsiyə həsr olunub*



Bizim fermamızın yaxınlığındakı fermanın sahiblərinin adı cənab və xanım Qreqdir. Onların iki uşağı var, hər ikisi oğlandır. Adları Filip və Vilyamdır. Bəzən onların evinə gedirəm və biz bir yerdə oynayırıq.

Mən qızam və səkkiz yaşım var.

Filipin də səkkiz yaşı var.

Vilyam üç yaş bizdən böyükdür. Onun on yaşı var.

Nə?..

Ah, hə, aydındır.

O, on bir yaşındadır.

Keçən həftə Qreqlərin başına çox qəribə bir əhvalat gəldi.

İndi çalışacağam hər şeyi bir-bir sizə danışım.

Deməli belə. Cənab Qreqlə oğullarının ən sevimli məşğuliyyəti ova getmək idi. Hər şənbə səhər tezdən onlar tüfənglərini götürüb meşəyə gedirdilər və orada müxtəlif quşların, heyvanların izinə düşüb onları vururdular. Hətta səkkizyaşlı Filipin də artıq öz tüfəngi var idi.

Mənim ovdan *zəhləm gedir*. Sadəcə, zəhləm gedir, vəssalam. Məncə, böyüklərin və oğlan uşaqlarının, sadəcə, öz kefləri üçün heyvanları öldürməsi düzgün deyil. Ona görə də Filiplə Vilyamı bu işdən çəkindirməyə var gücümlə çalışırdım. Hər dəfə fermaya gedəndə onları fikirlərindən daşındırmağa çalışıram, onlar, sadəcə, mənə gülürlər.

Bir dəfə cənab Qreqə də bu barədə nəsə dedim, amma o, yanımdan keçib getdi, sanki məni görmədi.



Sonra isə... Bir şənbə səhəri gördüm ki, Filiplə Vilyam ataları ilə birgə meşədən qayıdır və özləri ilə çox şirin maral balası gətirirlər.

Bu məni əsəbiləşdirdi, onların üstünə qışqırdım!



Amma onlar üzümə baxıb qəhqəhə çəkdilər, cənab Qreq isə evə getməyimi və başqalarının işinə qarışmamağımı dedi.

Elə hər şey də məhz bundan sonra başladı!

Mən çox qəzəbləndim.

Hirslə heç vaxt etmək istəmədiyim bir şey etdim.

ONLARIN HAMISINA SEHRLİ BARMAĞIMI TUŞLADIM!



Ay aman! Mən hətta orada olmayan xanım Qreqə də barmağımı tuşladım. Bütün Qreq ailəsinə tuşladım.

Özümə söz vermişdim ki, bir daha heç kimə Sehrli barmağımı tuşlamayacağam. Xüsusilə də müəllimənmiz xanım Vinterin başına gələnlərdən sonra. Yazıq xanım Vinter.

Bir dəfə dərsdə o bizə yazı qaydalarını öyrədirdi.

Pişik şəklini göstərdi və mənə dedi: